«Beynəlxalq münasibətlərdə Naxçıvan və müasir dövrdə inkişaf prosesləri»

«Beynəlxalq münasibətlərdə Naxçıvan və müasir dövrdə inkişaf prosesləri» mövzusunda keçirilmiş Beynəlxalq elmi konfransda Naxçıvan Muxtar Respublikasinin Bakı şəhərində Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərovun ç ı x ı ş ı.

Hörmətli konfrans iştirakçıları!
Əziz qonaqlar,xanimlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 14 yanvar 2014-cü il tarixli Sərəncamına müvafiq olaraq respublikamızın hər yerində keçirilmiş və keçirilməkdə olan tədbirlər, xüsusilə, bu gün Azərbaycan Milli Elmlər Akademiyasının təşkil etdiyi elmi konfrans müstəqil Azərbaycan tarixində Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusunun nə qədər böyük əhəmiyyətə malik olduğunu bir daha sübut etməkdədir.

Dövlət müstəqilliyimizin taleyi, möhkəmləndirilməsi və gələcək nəsillərə çatdırılması yolunda milli tariximizin yaradıcısı və müasir müstəqil dövlətimizin qurucusu olan Ümummilli Liderimiz Heydər Əliyevin siyasi uzaqgörənliyi və sarsılmaz iradəsi ilə demokratik Azərbaycanın dövlət olaraq əsaslarını hazırlamaq mərhələsində olduğu bir vaxtda, Naxçıvanın muxtariyyəti ilə bağlı vermiş olduğu siyasi və tarixi qərarlar milli dövlətçilik xəritəsində Naxçıvan Muxtar Respublikasının yerinin və rolunun qeyri-adi cəsarət, müdriklik və uzaqgörənliklə göstərildiyini dəqiqliklə ortaya qoymuşdur.

Bu günə qədər Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar hazırlanmış tədbirlər planına əsasən ölkəmizdə müxtəlif elmi konfranslar, sərgilər, dəyirmi masalar keçirilmiş, teleradio verilişləri və qəzet materialları hazırlanmış, sənədli filmlər çəkilmişdir. Həmçinin Prezident Kitabxanasında "Naxçıvan Muxtar Respublikası" elektron portalının ingilis dilində versiyasının təqdimatı mərasimi olmuşdur. Yubiley tədbirləri təkcə ölkəmizdə deyil, Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri tərəfindən də qeyd olunmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin iştirakı ilə aprel ayında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş zirvə tədbiri keçirilmişdir. Tədbirdəki nitqində ölkə Prezidenti Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətini qeyd edərək demişdir: ***"Naxçıvan qədim Azərbaycan torpağıdır... Əsrlər boyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır. Naxçıvanın, eyni zamanda, qədim dövlətçilik tarixi vardır. Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu,gözəl hadisə idi, tarixi hadisə idi. Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi".***

Prezident İlham Əliyevin bu tədbirdəki çıxışı bu günkü Naxçıvan reallıqlarının, onun inkişafının müasir Azərbaycan və dünya gerçəkliklərindəki yerini, rolunu və əhəmiyyətini bir daha açıq şəkildə təsəvvür etməyə imkan yaratmışdır. Dövlət Başçısının iti təfəkkürü səviyyəsində konkret və ümumi şəkildə qiymətləndirilən müasir Naxçıvanın inkişafı elə bugünkü inkişafın aparıcı siması sayılan Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin Sədri Cənab Vasif Talıbovun da qeyd etdiyi kimi məhz Ulu Öndər Heydər Əliyevin 1990-cı ilin əvvəllərində Azərbaycana-Naxçıvana qayıtması və onun xalqımızın dəvətilə yenidən siyasi hakimiyyətə gəlməsi ilə bağlıdır

Hörmətli konfrans iştirakçıları! Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinin qeyd olunması haqqında imzaladığı Sərəncama və yubiley tədbirlərinin geniş şəkildə keçirilməsinə göstərdiyi yüksək diqqətə görə ölkə Prezidenti Cənab İlham Əliyevə dərin minnətdarlığımızı ifadə edirik. Eyni zamanda bu beynəlxalq elmi konfransın təşkilatçılarına, Azərbaycan Milli Elmlər Akadmiyasına və konfransın iştirakçılarına minnətdarlığımızı bildiririk.
Sağ olun!